# Mətbuat Şurası İdarə Heyətinin yeni tərkibdə ilk iclası keçirilib

Aprelin 18-də Azərbaycan Mətbuat Şurası (MŞ) İdarə Heyətinin yeni tərkibdə ilk iclası keçirilib.

Şuradan AZƏRTAC-a verilən məlumata görə, gündəlik qəbul olunduqdan sonra MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxış edərək bu gün Prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasiminin keçirildiyini xatırladaraq, bu münasibətlə İdarə Heyətinin üzvləri adından dövlət başçısını təbrik edib. O, Azərbaycan jurnalistlərinin VII qurultayının qərarı ilə şuranın tərkibinin genişləndirildiyini vurğulayıb. Əlavə edib ki, hazırda İdarə Heyəti 23-ü əsas, 6-sı ehtiyat olmaqla 29 nəfərdən ibarətdir.

İclasda əvvəlcə şuranın sədr müavinləri seçilib. MŞ İdarə Heyətinin üzvləri - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyev və Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərlinin namizədlikləri digər üzvlər tərəfindən dəstəklənib.

Sonra şuranın yeni icraçı katibinin müəyyənləşdirilməsi məsələsinə baxılıb. Bu vəzifəyə MŞ sədrinin təqdimatı əsasında tanınmış hüquqşünas, uzun müddət şuranın hüquq komissiyasının işində yaxından iştirak etmiş Şəmsəddin Əliyevin namizədliyi təsdiqlənib.

İclasda MŞ-nın komissiyalarının sədrlərinin və tərkibinin müəyyənləşdirilməsi məsələsinə də baxılıb. Məlumat verilib ki, qurumun İdarə Heyətinin üzvləri növbəlilik əsasında şikayətlər üzrə komissiyanın işində iştirak edirlər. Nizamnaməyə görə, komissiyaya sədrliyi də şura sədrinin müavinləri növbəlilik əsasında həyata keçirirlər. Tərkib iki ildən bir yenilənir. Müzakirələrdən sonra Müşfiq Ələsgərli sədr olmaqla növbəti iki il müddətinə şikayətlər üzrə komissiyanın tərkibi təsdiqlənib.

Şuranın İdarə Heyətinin üzvləri, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə reket jurnalistikaya qarşı mübarizə komissiyasının, Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin rəhbəri Azər Həsrət beynəlxalq əlaqələr komissiyasının, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli mətbuatla dövlət qurumları arasında problemlərin həlli daimi komissiyasının, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru Nəsir Əhmədli dil komissiyasının, "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı internet medianın inkişafı üzrə komissiyanın sədrləri seçiliblər. Həmçinin komissiyaların, şuranın apelyasiya qrupunun tərkibi təsdiqlənib.

İclasda Mətbuat Şurası haqqında qanun layihəsinin hazırlanması istiqamətində işçi qrupunun fəaliyyəti məsələsinə baxılıb. MŞ-nın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Çingiz Qənizadə qrupun rəhbəri seçilib.

Mətbuat Şurasının nəzarət-təftiş komissiyasının yeni sədri də təqdim olunub. Nizamnaməyə əsasən, komissiyaya qurultay tərəfindən seçilmiş üç şəxs arasından sədr seçilir. Bu vəzifəyə "Xalq qəzeti"nin əməkdaşı Tahir Aydınoğlu seçilib.

Azərbaycan.- 2018.-19 aprel- S.14.